# Uşaq hüquqlarının öyrədilməsinin kiçik məktəbli şəxsiyyətinə təsiri

**Səbinə Muradova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** sebine_muradova@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A. N. Rəhimov,
p.ü.f.d., dos. P. M. Həsənova

**Açar sözlər:** təlim, məktəbli, təhsil, müasir, şəxsiyyət, uşaq, hüquqlar, sinif
**Ключевые слова:** обучение, школьник, образование, современный, личность, ребенок, права, класс
**Key words:** education, schooling, education, modern, identity, child, rights, class

Uşaq hüquqlarının öyrədilməsi kiçik məktəbli şəxsiyyətin bir çox cəhətlərinə təsir edir.

Kiçik məktəbli yaş dövrü 6-10 yaşı əhatə edir. Bu dövrün başlıca xüsusiyyətləri uşagın məktəbli olması, əsas fəaliyyətinin təlim fəaliyyəti təşkil etməkdən ibarətdir. Bu dövr bir növ kecid dövr olub, məktəbəqədər dövrün xüsusiyyətləri ilə məktəblinin xüsusiyyətlərini birləşdirir.

Bu yaşda əsas fəaliyyət növü təlimdir. Təlimdə uşaq biliklərə yiyələnir, tərbiyə olunur və psixi cəhətdən inkişaf edir.

Müəllim şagirdlərə təlim əməyini düzgün təşkil etməyə, öyrənmənin səmərəli yollarını öyrətməyə çalışmalıdır. K.D.Uşinski bunu ibtidai təlimdə bilik verməkdən də vacib vəzifə hesab edirdi. Kiçik məktəblilərlə təlim-tərbiyə işində yaş xüsusiyyətlərinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Kiçik məktəblilər hər şeyi öyrənməyə can atırlar; bunu nəzərə alıb şagirdlərdə mütaliə tələbatı formalaşdırmaq olar;

b) Uşaqlar şən, emosional təbiətə malikdirlər; müəllim və valideynlər bədii əsər və filmlərdən, canlı sözdən istifadə edib onlarda yüksək mənəvi hisslər (vətənə məhəbbət, xeyirxahlıq, qayğıkeşlik, diqqətlilik və s.) aşılamağa çalışmalıdırlar;

c) Kiçik məktəblilərdə ünsiyyət tələbatı güclüdür; bunu nəzərə alıb uşaqları kollektiv tədbirlərə, birgə oyuna, əməyə cəlb etmək, onlarda kollektivçilik, yoldaşlıq, dostluq, nəzakətlilik, qızlara qarşı diqqətlilik kimi keyfiyyətlər aşılamaq lazımdır;

ç) Uşaqlar təsir altına tez düşür, müəllimə inanır, onun dediklərini sözsüz yerinə yetirirlər. Bundan şagirdlərin düzgün tərbiyəsi üçün istifadə edilməlidir;

d) İbtidai sinif şagirdləri müəllimin tapşırıqlarını böyük həvəs və səylə yerinə yetirirlər. Müəllim və valideynlər müəyyən tapşırıqlar sistemi tətbiq etməklə, uşaqları həvəsləndirməklə onlarda müsbət keyfiyyətlər tərbiyə etməyə nail ola bilərlər.

Gələcəkdə, şəxsiyyətin formalaşmasında ibtidai siniflərdə uşaq hüquqlarını öyrətməkdir. Uşaq öz hüquqlarını bilən zaman bir sıra müsbət keyfiyyətlər yaranır. Tam əksinə, öz hüququnu bilmədikdə isə özünü təsdiq edə bilmir, özünə qarşı inamsız olur, həyata biganə baxır. Öz hüquqlarını bildikdə və dərk etdikdə isə özünə inam hissi artır, özünə güvənir, özünü yüksək qiymətləndirir, məsuliyyət hissi artır, davranışını tənzimləyə bilir, özünə qapanmır, fikirlərini sərbəst ifadə edir, vətəndaşlıq hissi formalaşır. Bu şəxsiyyətin strukturunun möhkəmlənməsinə gətirirb çıxarır.

Uşaq hüqüqlarının öyrədilməsi ibtidai sinif şagirdlərinin şəxsiyyətinə və ləyaqətinə hörmət olunmasına, istək və arzularına diqqət göstərilməsinə, onlarda öz qüvvələrinə, təbii imkanlarına, bilik və bacarıqlarına, gələcəkdə cəmiyyət üçün yararlı olmalarına inam yaranmasına, müstəqillik, prinsipiallıq və qətiyyətlilik kimi xüsusiyyətlərini formalaşdırılmasına etibarlı zəmin yaradır.

Uşaq hüquqlarının öyrədilməsi sahəsində məktəblərin, müəllimlərin üzərinə düşür. Uşaqlar sosial vəziyyəti eyni olmayan müxtəlif ailələrdən gəlir və bir yerdə təhsil alırlar. Burada onlar biliklərə yiyələnməklə yanaşı, həmçinin bir şəxsiyyət və vətəndaş kimi formalaşırlar. Uşaq hüquqlarının öyrədilməsini məqsədi şagirdlərdə dünyagörüşü formalaşdırmaqdır. Buna da yeni vərdişlərin və həyata düzgün baxışların yaranmasına səbəb olur.

Uşaq hüquqlarının riayət olunmasını üçün hər kəs öz hüquq və vəzifələrini bilməli, cəmiyyətin bütün təbəqələrində hüquqi mədəniyyəti formalaşdırmalıdır.

Bütün mədəni dəyərlərin yaranmasında təhsilin rolu əvəzsizdir. Uşaq Hüquqları Konvensiyanın ən əsas hüquqlardan biri təhsil hüququdur. Təhsil prosesində şagirdlər mövcud müsbət dəyərləri saxlamaqla yanaşı, yeni dəyərlər mənimsəyirlər. Uşaqların hüquqi mədəniyyətə sahib olması onlarda yüksək təhsil göstəricilərinin olmasını tələb edir .

Müasir məktəbin əsas vəzifələrindən biri gənc nəsli inkişaf etməkdə olan demokratik həyata hazırlamaq, gələcəyimiz üçün ləyaqətli vətəndaş yetişdirməkdir. İbtidai siniflərdə keçirilən bir sıra fənlərin əsas məqsədi kiçik yaşlı məktəblinin öz hüquqlarını daha da dərindən öyrədilməsi və mənimsənilməsidir. Bu fənlərin içərisində "Həyat bilgisi" fənni xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasında göstərilir: "Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur".

Dövlət ailə və valideynlərin öz vəzifələri yerinə yetirməsinə nəzarət edir. Əgər valideynlər öz vəzifələrini yerinə yetirməzlərsə, uşağın yaşaması və təhsil alması üçün normal şəraiti dövlət özü təmin edir. Uşağın hüquqları valideynlər tərəfindən ciddi şəkildə pozularsa, dövlət onları valideynlik hüququndan məhrum edə bilər.

Azərbaycan dövləti "Uşaq Hüquqları Konvensiyası"na nə üçün qoşulub, nə zaman qoşulub, Azərbaycanda uşaq hüquqları nece qorunur və bir sıra sualların cavabı 4-cü sinif "Həyat bilgisi" fənnində geniş şəkildə izahı verilmişdir (6, 30-31).

Uşaq hüquqlarının öyrədilməsi ilə bağlı kiçik məktəbli uşaqlarda bir sıra mənəvi dəyərlər, keyfiyyətlər yaranmağa başlayır. Bunlara dinləmək bacarığı, əməkdaşlıq bacarığı, ünsiyyət yaratmaq bacarıq və vərdişləri, hüquqlarını qorumaq bacarığı, münaqişələri həll etmək, uyğun variantları axtarıb tapmaq bacarığı və bir sıra keyfiyyətlər formalaşır.

Bildiyimiz kimi, Azərbaycan dövləti olduqca ağrılı günlər kecirtmişdir. Torpaqlarımızın 20% faizdən çoxu işğal olunmuş, azərbaycanlılar öz isti yuvasından, elindən didərgin düşmüş, çox böyük vətən itgisi yaşamışdır. Bu itgi böyükdən kiçiyə hər kəsi sarsıtmışdır. Dəhşətli hadisə nəticəsində bir cox uşaqlar atasız, anasız yaşamağa məcbur qalmış, qayğısız böyümüşdür. Bir sira ailələr başsız qalmış, bir çox yuvalar dağılmışdır.

Lakin təxminən iyirmi il ərzində müharibənin ağlasılmaz dəhşətləri şagirdlərin təlim fəaliyyətinə son dərəcə mənfi təsir göstərmişdir. Uşaqların bir sıra hüquqlarını əlindən almışdır. Həmin illərdə bu uşaqların təlim fəaliyyəti aşağı düşmüşdür.

Şagirdlərin aşağı qiymətlərlə oxumasının səbəblərindən biri də onların təlim fəaliyyəti ilə bilavasitə uzlaşmayan, hətta ona mane olan kənar işlərə cəlb olunmasıdır. Bir çox hallarda müşahidə edilən belə birtərəfli meyllər ailənin maddi vəziyyəti ilə bağlıdır. Ailəni maddi

cəhətdən təmin edə bilməyən valideynlər çətin vəziyyətdən çıxış yolunu yalnız uşağın ailəyə köməyində görürlər. Uşaqlar öz qazancları ilə valideynləri sevindirsə də onların dərsə hazırlaşmaq üçün sadəcə olaraq vaxtı qalmır. Belə hallarda şagirdləri "təhqir etmək, danlamaq" faydasızdır. Onlara "humanistcəsinə yanaşmaq, hər şeyin açarının bilikdə və elmdə olduğunu" inandırmaq gərəkdir (5, 300-305)

**Məqalənin aktuallığı.** Uşaqların hüquqlarını dərk etməsində uşaqların hüquqlarını bilməsi və dərk etməsi böyük əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə kiçik məktəblilərə öz hüquq və azadlıqlarının öyrədilməsi, onlarda vətənin gələcəyi üçün çalışan vətəndaş tərbiyəsində mühüm məna daşıdığı araşdırılır ki, bu da məqalənin elmi yeniliyini şərtləndirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat işində əldə olunan nəticələr təhsil sahəsində çalışanlar, bakalavr və magistrlər elmi-pedaqoji fəaliyyətdə yararlana bilərlər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı, Çaşıoğlu, 1999.
2. Ə.Ə. Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
3. Uşaq hüquqları konvenisyası.
4. "Azərbaycan müəllimi" qəzeti, 3-4 cü rüb, 2011.
5. H.Əlizadə, R.Mahmudova. Sosial pedaqogika. Bakı, 2013.
6. G.Mehdiyeva, B.Kərimova. Həyat bilgisi. Bakı, 2015.


**С. Мурадова**

## Влияние изучении прав ребенка на идентичность малых школ

## Резюме

Обучение детей их правам и обязанностям в начальных классах имеет важное педагогическое, психологическое значение. Каждый учитель должен знать, что правила в классе должны быть направлены на защиту прав каждого человека, в том числе ребенка и должно не ограничивать прав других в интересах личных интересов. Потому что класс - одна из самых маленьких моделей общества.

**S. Muradova**

## Influence of child rights education on the small school identity

## Summary

Teaching children their rights and responsibilities in elementary grades has important pedagogical, psychological significance. Every teacher should know that the rules in the class should be directed to the protection of the rights of each individual, and should restrain the restriction of others' rights in the interest of personal interests. Because class is one of the smallest models of society.